# "İtirən AŞPA oldu"



**Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. O qeyd edib ki, AŞPA-dakı sistem qüsurludur. Belə ki, bir ölkənin deputatının təklifi ilə digər ölkənin nümayəndə heyətinin mandatının təsdiq olunmaması düzgün deyil. "Çünki biz bərabər hüquqlu üzvlərik. Həmin ölkənin Azərbaycanın daxili işlərinə qarışmağa ixtiyarı yoxdur. Digər tərəfdən, hansısa bir qərar ümumi sayın əksər səs çoxluğu ilə qəbul edilməlidir. İştirak edənlərin bir qisminin səsi ilə qəbul edilən qərar əhəmiyyətsizdir. Burada yüzlərlə üzv var, cəmi 76 anti-Azərbaycan mövqeyi tutan deputatın səsi ilə mandat təsdiq olunmur", - deyə deputat bildirib.**

Aydın Mirzəzadə qeyd edib ki, burada bir incə məsələ də var ki, bu da özünü Azərbaycanla dost sayan ölkələrin səsvermədə iştirak etməməsidir: "Həmin ölkələr Avropa ilə sıx bağlıdırlar və Azərbaycanın lehinə açıq səs verdikləri halda Qərblə alt qatdan çox ciddi problemlər yaşaya biləcəklərini düşünürlər. Buna görə bəlkə də diplomatik yol seçərək sadəcə olaraq səsvermədə iştirak etmədilər və Azərbaycana sanki "biz sənin əleyhinə səs vermədik" mesajını göndərmək istədilər. Qoy dostlarımızın problemi az olsun. Amma Azərbaycana qarşı bu münasibətin nə zamansa onlara qarşı ola biləcəyini də nəzərlərində saxlasınlar".

A.Mirzəzadə Azərbaycanı açıq şəkildə müdafiə edən deputatlara təşəkkürünü bildirərək onların qətiyyətli mövqe ortaya qoyduqlarını vurğulayıb. Bildirib ki, hər bir halda itirən Azərbaycan deyil, AŞPA oldu: "Azərbaycan xalqı müstəqil dövlətini qurub. Demokratiyanı, insan hüquqlarını özünün həyati prinsipləri kimi müəyyən edib. Belə ədalətsizliyi görən Azərbaycan Avropa Şurası və İnsan Haqları üzrə Avropa Məhkəməsində də iştirak məsələsini müzakirə edə bilər".

Deputat hesab edir ki, Azərbaycansız Avropanın Şərqlə, müsəlman dünyası ilə siyasəti çox yarımçıq görünəcək. Bunu Avropa yaxşı başa düşür.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.5.